# "Peşə təhsilverəni: Yeni çağırışlar və perspektivlər"

## Elm və Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşəbbüsü ilə konfrans keçirilib






Yanvarın 24-də Elm və Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin birgə təşəbbüsü ilə "Peşə təhsilverəni: yeni çağırışlar və perspektivlər" mövzusunda konfrans keçirilib.

Konfrans peşə təhsilində yeni yanaşmaların müzakirəsi və təhsilverənlərin peşəkar inkişafına dəstək məqsədilə təşkil olunub.

Tədbir Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmovun açılış nitqi ilə başlayıb. Agentlik direktoru qeyd edib ki, hazırkı dövrdə peşə təhsili yalnız ənənəvi biliklərin deyil, həm də müasir texnologiyaların, yenilikçi bacarıqların və əmək bazarının konkret tələblərinə uyğun mütəxəssislərin hazırlanmasını tələb edir. Biz bu sahədə müasir tədris modelləri və beynəlxalq təcrübələrdən istifadə edirik. Eyni zamanda peşə təhsili sektoru qarşısında duran əsas çağırışlardan biri sürətlə inkişaf edən texnologiyalar və rəqəmsallaşmadır. Biz bu çağırışları fürsətə çevirmək üçün işəgötürənlər, beynəlxalq təşkilatlar və yerli icmalarla əməkdaşlığı gücləndiririk.

Daha sonra tədbir iştirakçılarına peşə təhsilində təhsilverənlərlə bağlı 2024-cü ilin hesabatı və 2025-ci il üçün hədəflər təqdim edilib. Həmçinin "Dördüncü Sənaye İnqilabı dövründə peşə təhsili" mövzusunda təqdimat edilib.

Konfransda üç fərqli istiqamət üzrə panel müzakirələri təşkil edilib. Birinci panel müasir dövrün çağırışlarına cavab olaraq, təhsilverənlərin peşəkar bacarıqlarının inkişafına həsr edilib. İkinci panel rəqəmsal transformasiyanın təhsildə tətbiqi, üçüncü panel isə inklüziv təhsil mühitində təhsilverənlərin rolunu, qarşılaşdığı çətinlikləri və inklüzivlik sahəsində uğurlu təcrübələri əhatə edib. Paneldə beynəlxalq təcrübələrdən nümunələr təqdim edilib.

200 nəfərin iştirak etdiyi konfransda peşə təhsilində yeni perspektivlərin gənclərə təkcə nəzəri biliklər deyil, həm də əmək bazarında tələb olunan praktiki bacarıqları qazanmaq üçün unikal imkanların təqdim edilməsi ön plana çıxarılıb.



"Son illərdə peşə təhsilinin əhatəliliyinə dair bir çox hədəflərə artıq nail olunub. Bildiyiniz kimi, bu tədris ilində peşə təhsil müəssisələrinə 25 minə yaxın tələbə qəbul edilib ki, bu da son 10 ilin ən yüksək göstəricisidir.

Əhatəliliklə bağlı hədəfə nail olmaq üçün görülən tədbirlər davam edir və 2026-cı ilə qədər təxminən 28 min tələbənin peşə təhsil müəssisələrinə cəlb edilməsi planlaşdırılır.

Əhatəliliyin artırılması üçün bir çox şərtlər mövcuddur və bu şərtlərdən ən vacibi siyasi iradədir. Bu istiqamətdə ölkə başçısının peşə təhsilinin inkişafı ilə bağlı konkret hədəfləri mövcuddur. Bu hədəflər çərçivəsində peşə təhsilinin infrastrukturunun müasirləşdirilməsi və təkmilləşdirilməsi mühüm yer tutur.

Müəllimlərin təlimlərə cəlb edilməsi bizim əsas prioritetlərimizdən biridir. Xüsusilə, bu il təxminən 200 müəllimimizin beynəlxalq mübadilə proqramlarında iştirak etməsi planlaşdırılır. Bu, bizim üçün çox vacibdir, çünki təhsilin keyfiyyətindən danışırıqsa, burada əsas aparıcı qüvvə məhz təhsilverənlərimizdir".

**Yetər KƏRİMLİ**